*Qədim, doğma Qobustanım*

# QOBUSTAN

*Qobustan Rayon İcra Hakimiyyətinin orqanı*

Qəzet 1992-ci ildən çıxır ∗ **İCTİMAİ-SİYASİ QƏZET** ∗ №009 (192) dekabr 2019-yanvar 2020-ci il

# Qobustan rayon sakinləri “650 min ağac əkək” təşəbbüsünə qoşulublar







***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə respublikamızda bir gündə 650 min ağacın əkilməsi təşəbbüsünə Qobustan rayonunda da böyük coşqu ilə qoşulublar.***

Nəsimi poeziyasının fəlsəfəsi təbiət gözəlliklərinin, saf bəşəri duyğuların, şəxsiyyət azadlığının tərənnümü üzərində qurulub və Azərbaycan ədəbiyyatının daha da zənginləşməsində misilsiz rol oynayıb. Bu gün bütün ölkə ərazisində olduğu kimi, bəşəri dəyərlər şairi İmadəddin Nəsiminin 650 illik yubileyi çərçivəsində Qobustan rayonunda həyata keçirilən silsilə tədbirlərdən biri kimi, rayonun müxtəlif yerlərində yerləşən parklarda, bağlarda, o cümlədən rayonumuzun Cəngi adlanan ərazisində yaşıllıq zolağında ağacəkmə kampaniyası böyük bayram coşqusu ilə keçirilib.

Qobustan rayon rəhbərliyinin, idarə, müəssisə və təşkilatların nümayəndələrinin, rayon ictimaiyyətinin, sakinlərin, həmçinin gənclərin yüksək fəallıqla qoşulduğu, 800 adamın iştirak etdiyi genişmiqyaslı ağacəkmə kampaniyasında 2000 akasiya, 1550 ağcaqayın, 1300 göyrüş, 950 ərik, 600 nar, 200 badam, 200 zeytun tingi əkiləcək. Bayram əhval-ruhiyyəsində təşkil olunan bu genişmiqyaslı kampaniya çərçivəsində qabaqcadan ağacların əkiləcəyi ərazilərdə şum aparılıb, çalalar qazılıb və sahələr gübrə verilərək əkinə hazırlanıb.

***Redaktor***

# Ümummilli lider Heydər Əliyevin vəfatının 16-cı ildönümünə həsr edilmiş anım tədbiri keçirildi






**Qobustan rayonunda 12 Dekabr-Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr edilmiş mərasim keçrildi.**

Anım günündə Qobustan rayon icra hakimiyyətinin başçısı, aparat işçiləri, idarə, müəssisə, təşkilat rəhbərləri və Qobustan rayon sakinləri iştirak etdilər. Mərasim Qobustan rayon Heydər Əliyev Parkında abidə önünə gül qoyulması ilə başladı. Sonra Ulu Öndərin əziz xatirəsi yad edildi və ehsan süfrəsi təşkil olundu.

# *Adil Məmmədov:* Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın banisidir

***Azərbaycanın bugünkü inkişaf yolunun əsas istiqamətlərindən danışarkən birmənalı şəkildə qeyd etmək lazımdır ki, bu inkişaf ilk növbədə xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi xəttin ardıcıl davam etdirilməsinin nəticəsidir. Heydər Əliyev bütün həyatı boyu Vətəninin, xalqının gələcəyini düşünmüş, Azərbaycanın müstəqilliyinin əbədiliyinə bütün varlığı ilə inanaraq bu dövlətin ideya əsaslarını, strateji inkişaf istiqamətlərini konkret olaraq müəyyənləşdirmişdir.***



Bu gün keçmişə nəzər salarkən və Heydər Əliyevin hələ respublikamız keçmiş Sovet İttifaqının tərkibində olduğu zaman Azərbaycan üçün gördüyü işləri qiymətləndirərkən bu böyük insanın ruhu qarşısında baş əyməyə bilmirsən. Ulu öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə rəhbərlik etdiyi 15 ilə yaxın dövr ərzində respublikanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq olmuş, adı heç yerdə çəkilməyən Azərbaycanı qısa müddətdə sovet respublikaları arasında ön sıralara çıxarmağa, ən sürətlə inkişaf edən bir respublikaya çevirməyə nail olmuşdu.

Heydər Əliyev çox gözəl bilirdi ki, respublikanın inkişafı ilk növbədə onun iqtisadi qüdrətini artıran enerji təminatının yaxşılaşdırılmasından, sənaye potensialının yaradılmasından, elm və mədəniyyətinin, ən başlıcası, insan potensialının inkişaf etdirilməsindən asılıdır. İttifaq rəhbərliyinin göstərdiyi maneələrə baxmayaraq o, iradəsindən dönmür, bütün vasitələrlə bu maneələri aradan qaldırmağa çalışır və bunu bacarırdı. Hazırda Azərbaycanın 2020-ci ilədək inkişaf konsepsiyası ətrafında gedən müzakirələr, bu konsepsiyada müəyyən olunacaq əsas hədəflər də Heydər Əliyev ideyalarından güc alır. Ulu öndərin dövlət başçısı İlham Əliyev tərəfindən müasir reallıqlara söykənməklə daha da zənginləşdirilən ideyaları, onun strategiyası, onun arzuları artıq həqiqətə çevrilmişdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkənin enerji siyasəti Heydər Əliyevin neft strategiyası əsasında qurulmuşdur və bu strategiya dünyanın müasir tələblərinə uyğunlaşdırılmış, zənginləşdirilmişdir.Ümummilli liderimizin ölməz ideyaları təkcə enerji siyasətimizi deyil, bütövlükdə Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirmişdir və həmin strategiyanın ardıcıl həyata keçirilməsi bu gün də ölkəmizi sürətlə irəli aparır. Vaxtilə onun cəsarət və uzaqgörənliklə həyata keçirdiyi islahatlar olmasaydı, Azərbaycanın indiki inkişaf səviyyəsi ancaq xəyal olaraq qala bilərdi. Heydər Əliyev Azərbaycanın 1993-cü ildən sonra əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirərək, bu dövrdə cəmiyyətdə aparılmış islahatların məqsədini və mahiyyətini belə izah edirdi: "Bizim əsas məqsədimiz ondan ibarət olubdur ki, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirək və inkişaf etdirək. Biz bunu etmişik və artıq Azərbaycanda dövlət müstəqilliyi sarsılmazdır, dönməzdir və əbədidir". Heydər Əliyev çox gözəl bilirdi ki, yeni Azərbaycan dövlətinin qurulması və möhkəmləndirilməsi, keçmiş sosializm sistemi münasibətlərinin yeni münasibətlərlə əvəz edilməsi, müasir dünyanın tələbləri ilə ayaqlaşa bilən bir dövlətin qurulması bütün sahələrdə dərin islahatların aparılmasından, insanların şüurunu tədricən dəyişməkdən asılıdır. Odur ki, ölkənin müharibə şəraitində olmasına baxmayaraq böyük risk və qətiyyətlə həmin islahatların konsepsiyasını hazırlayıb ardıcıl həyata keçirirdi. Onların müsbət nəticələri barədə isə xalq qarşısında belə hesabat verirdi: "Bu gün qürur hissi ilə deyə bilərik ki, Azərbaycanda yeni bir sistem yaranıbdır. Dünya standartlarına yaxınlaşan, dünya standartlarına çatmağa çalışan hüquqi, demokratik, dünyəvi dövlət yaranıbdır. Budur bizim nailiyyətimiz... Bu, bütün sahələrdə özünü göstərir. Bizim Konstitusiyamız, qəbul etdiyimiz qanunlar, onların icrası, cəmiyyətə bütün sahələrdə verilən azadlıq, sərbəstlik - bunlar hamısı bizim dövlətçilik anlayışımızın tərkib hissələridir".Heydər Əliyev fenomeninin əsas xüsusiyyətlərindən biri də ondan ibarət idi ki, o, başladığı işlərin nəticəsini əvvəlcədən görür və hesablaya bilirdi. Buna görə də cəsarətlə elan edirdi ki, Azərbaycan müstəqilliyini elan edəndən sonra bəyan etdiyi demokratiya, bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat, dünya birliyinə, dünya iqtisadiyyatına inteqrasiya prinsiplərini həyata keçirməyə başlamış, həm də böyük nailiyyətlər əldə etmişdir və elə yola çıxmışdır ki, artıq bundan sonra daha da sürətlə irəliləyəcəkdir.Ulu öndər iqtisadi məsələlərin mahiyyətini çox gözəl bilir, bu sahədə dünya təcrübəsinin Azərbaycanda tətbiqinə böyük əhəmiyyət verirdi. Məhz onun səyləri və rəhbərliyi altında hazırlanmış dövlət əmlakının birinci və ikinci özəlləşdirmə proqramları əsasında respublikada yeni iqtisadi münasibətlərin əsası qoyulmuş, özəl sektor yaradılmış, respublikaya böyük xarici sərmayələr cəlb edilmiş, sahibkarlıq üçün geniş imkanlar açılmış, sovet dövründən qalma fabrik və zavodlar dünya bazarına çıxarıla biləcək məhsullar istehsalına yönəldilmək üçün yerli və xarici sahibkarlara verilmişdir. Bununla yeni sənaye sahələri yaradılmaqla bərabər, yeni iş yerlərinin açılmasına da başlanmışdır. Heydər Əliyev inanır və bəyan edirdi ki, Azərbaycan bu sahədə düzgün yoldadır: "Azərbaycan iqtisadi islahatların keçirilməsi sahəsində doğru yoldadır. Çox böyük nailiyyətlər əldə edibdir. Biz bu yolu bəyənmişik, bu yolla gedirik və gedəcəyik".

Uzaqgörən siyasətçi kimi özünü hələ sovet dövründə təsdiq etmiş Heydər Əliyev yeni dövrün, yeni tarixi şəraitin xüsusiyyətlərini nəzərə alaraq Azərbaycanın inkişaf yolundan danışarkən deyirdi: "Biz çalışırıq və bundan sonra da çalışacağıq ki, inkişaf etmiş ölkələrin səviyyəsinə çatmaq üçün Azərbaycanda tərəqqi daha da sürətləndirilsin. Ancaq bilmək lazımdır: bunların hamısını bir gündə, bir ayda, bir ildə əldə etmək mümkün deyildir. Buna həm zaman lazımdır, həm də iradə, inam lazımdır. Zaman bizdən asılı deyildir. Ancaq iradə, inam özümüzdən asılıdır. Hamı bilməlidir ki, Azərbaycan dövlətində, Azərbaycan hakimiyyətində bu iradə, bu inam var".

Heydər Əliyev Azərbaycan cəmiyyətini saflaşdırmış, gələcək nəsillər üçün sivil dəyərlərə əsaslanan, milli-mənəvi dəyərləri yaşatmağa qadir olan bir ölkə miras qoymuşdur. Vaxtilə gənclərlə keçirdiyi görüşlərdə dəfələrlə qeyd etmişdir ki: "Bizim gələcəyimiz gənclərdir... Biz bugünkü gənclərə çox yüksək amallara, mənəvi keyfiyyətlərə, yüksək iqtisadi potensiala malik olan dövlət, ölkə əmanət edəcəyik".

Doğrudan da, 1993-cü ildən sonra keçirilən islahatların miqyası və sürəti heyrətamizdir. Bunlardan təkcə kənd təsərrüfatı və torpaq islahatlarını göstərmək kifayətdir. Ulu öndər artıq 2001-ci ildə deyirdi: "Biz konkret olaraq hansı sahədə nələr əldə etmişik? Məsələn, kənd təsərrüfatında biz 1995-1996-cı illərdə torpaq islahatı keçirdik. O vaxt bu bizim üçün cəsarətli addım idi. Çünki MDB ölkələrinin heç birində torpaq islahatı keçirilməmişdir və çoxunda bu günə qədər də aparılmamışdır". Məhz Heydər Əliyevin bu cəsarətli addımları sayəsində Azərbaycan kəndlisi öz torpağının əsl sahibinə çevrilmiş və bunun böyük bəhrəsini bu gün də görməkdədir. Respublikanın kənd təsərrüfatında son illərdə qazanılmış qələbələr isə göz qabağındadır. Ulu öndərin bu sahədə başladığı işlər müstəqilliyimizin sonrakı illərində də uğurla davam etdirilmiş, Prezident İlham Əliyevin kənd təsərrüfatına göstərdiyi böyük kömək sayəsində artıq Azərbaycan öz ərzaq təhlükəsizliyini təmin edən bir dövlətə çevrilmişdir.Heydər Əliyev çox gözəl bilirdi ki, Azərbaycanın bir dövlət kimi daim yaşaması, müstəqilliyini qoruyub saxlaması, regionda mövcud olan gərgin siyasi şəraitdə ona dünyanın böyük gücləri tərəfindən göstərilən təzyiqlərə davam gətirməsi, ölkənin zəngin təbii sərvətlərinin qorunması və bu sərvətlərdən Azərbaycan xalqının rifahı naminə istifadə edilməsi üçün güclü və demokratik dövlət, bu dövlətin möhkəm hüquqi bazası, dinamik inkişafına təkan verən iqtisadi sistemi və tarazlı beynəlxalq siyasəti olmalıdır. Buna görə də öz çıxışlarında dönə-dönə qeyd edirdi: "...bu gün Azərbaycana güclü dövlətçilik lazımdır. Əgər Azərbaycanda güclü dövlətçilik olmasa, ölkəmizin həm içindən, həm də kənarından Azərbaycanı dağıdacaqlar. Bunu bilməlisiniz".

Dünyada və regionda mövcud olan geosiyasi vəziyyəti dərindən təhlil edən Heydər Əliyev Azərbaycanın bütün dövlətlərlə, o cümlədən yaxın qonşuları ilə sıx əlaqələrini yarada bilmiş, Azərbaycanın iqtisadi və siyasi maraqlarını qoruyaraq Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsinə nail olmuş, Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasına, enerji daşıyıcılarının alternativ ixrac istiqamətlərinin əldə olunmasına yol açmışdır. Hələ 2000-ci ildə bu kəmərin tikintisinə şübhə ilə yanaşanlar olsa da Azərbaycanın iqtisadi inkişafında yeni bir mərhələnin başlanğıcına təkan vermiş və çox böyük siyasi maneələr dəf edilməklə, eyni zamanda böyük zəhmətlə başa gəlmiş bu kəmər haqqında fəxrlə deyirdi: "Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri var, olacaq və yaşayacaqdır. Bu, elə bir neft kəməridir ki, yüz il, bəlkə də ondan da çox yaşayacaqdır". Doğrudan da, 2006-cı ildə bu kəmər işə başladı və Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, Azərbaycanın iqtisadi müstəqilliyinin gücləndirilməsində müstəsna rol oynayır. Bunlar hamısı son nəticədə ölkənin iqtisadi müstəqilliyini gücləndirməklə yanaşı, onun tərəqqisinə, inkişaf etmiş ölkələr səviyyəsinə yüksəlməsinə şərait yaratmışdır. Heydər Əliyev bu layihələrin həyata keçirilməsində böyük səbir və təmkinlə, eyni zamanda heyrətamiz iradə və qətiyyətlə hərəkət edirdi.Ulu öndər Azərbaycanda sahibkarlığı, bir sözlə, özəl sektoru inkişaf etdirmək üçün ona hər vasitə ilə dəstək verir, bu prosesi sürətləndirmək, bu sahədə yaranan maneələri aradan qaldırmaq üçün bilavasitə yerli və xarici sahibkarların özü ilə vaxtaşırı görüşlər keçirir, hətta elə həmin görüşlər zamanı anket sorğusu vasitəsilə onların rəylərini öyrənirdi. Həmin sorğuların nəticələrini ciddi surətdə araşdıraraq problemlərin aradan qaldırılması üçün qəti tədbirlər görürdü. Hələ sovet dövründə öz prinsipiallığı və neqativ hallarla barışmazlığı ilə tanınmış Heydər Əliyev yaxşı bilirdi ki, sahibkarlığın genişlənməsində, ümumiyyətlə, cəmiyyətin inkişafında ən böyük bəlalardan biri korrupsiya hallarıdır. Buna görə də korrupsiyanın kökünün kəsilməsini, buna imkan yaradan səbəblərin aradan qaldırılmasını, ən başlıcası, bütün sahələrdə şəffaflığın təmin edilməsini ön plana çəkirdi. Heydər Əliyev bunu real surətdə həyata keçirmək üçün ilk növbədə hüquqi bazanın və işlək mexanizmlərin yaradılmasını təmin etmişdi, bu mexanizm və strukturların səmərəli fəaliyyət göstərməsinə ciddi nəzarət edirdi. Məhz onun təşəbbüsü ilə yaradılmış Dövlət Neft Fondunun şəffaf fəaliyyəti buna əyani misaldır. Həmin prinsiplərin və ənənələrin bu gün dövlət başçısı İlham Əliyev tərəfindən daha qətiyyətlə davam etdirildiyini heç kəs inkar edə bilməz. Azərbaycan Prezidenti bu məsələləri daim nəzarətdə saxlamaqla yanaşı, korrupsiyanın və bürokratiyanın aradan qaldırılmasının daha müasir vasitələrindən istifadə edir. Bu vasitələr ilk növbədə elektron hökumətin yaradılmasına yönəldilmiş tədbirlərdir. Azərbaycan Prezidenti İlham Əliyev vaxtilə Heydər Əliyevin informasiya və kommunikasiya texnologiyalarının inkişafı sahəsində müəyyən etdiyi strategiyaya uyğun olaraq bu sahəni ən müasir səviyyəyə qaldırmaqla məmur-vətəndaş təmaslarının get-gedə azaldılmasını, bilavasitə əhalini narahat edən belə təmasların elektron formada həyata keçirilməsini təmin edir.Azərbaycanın Heydər Əliyev tərəfindən təməli qoyulan dövlət müstəqilliyinin möhkəmlənməsinə xidmət edən siyasi və iqtisadi inkişaf konsepsiyası ondan sonrakı illərdə ulu öndərin ən sadiq davamçısı İlham Əliyev tərəfindən yeni geosiyasi şəraitdə, dünya iqtisadiyyatında baş verən kataklizmlər nəzərə alınmaqla yeni ideyalarla zənginləşdirilmiş və böyük bacarıqla tətbiq edilmişdir. Prezident İlham Əliyev bu müdrik insanın ideyalarını rəhbər tutaraq ölkəyə rəhbərlik etdiyi dövr ərzində Azərbaycan iqtisadiyyatını üç dəfə artıra bilmiş, Azərbaycanı dayanıqlı və sabit inkişaf edən, öz çoxşaxəli iqtisadiyyatını yaratmış, vaxtilə xarici investisiyalardan asılı olduğu halda, indi xaricdə investisiya qoymaq imkanı olan bir ölkəyə çevirmiş, Azərbaycanda ən müasir texnologiyaları tətbiq etməklə ölkənin gələcək inkişafını sürətləndirən çox böyük potensial yaratmışdır.

*Bir sözlə, keçdiyimiz qısa tarixi dövr sübut edir ki, Heydər Əliyev ideyalarının reallaşdırılması üçün göstərilən səylər öz bəhrəsini verir və vaxtilə Heydər Əliyevin həyata keçirdiyi düşünülmüş və məqsədyönlü tədbirlər Azərbaycanın bugünkü və gələcək problemlərinin həllinə, müstəqilliyimizin möhkəmləndirilməsinə, dövlətimizin və xalqımızın tərəqqisinə yönəlmişdir.*

*Ulu öndər Heydər Əliyevi rəhmətlə anırıq. Allah rəhmət eləsin! Ruhu şad olsun!*

***Adil Məmmədov***
***Qobustan Rayon İcra Hakimiyyətinin başçısı***

# Mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi Qobustan şəhər 2 saylı tam orta məktəbdə qeyd olundu





***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar görülən tədbirlər çərçivəsində Qobustan şəhər 2 saylı tam orta məktəbində tədbir keçirildi.***

Tədbiri giriş sözü ilə acan məktəbin dil-ədəbiyyat müəllimi D.Bağırova tədbir haqqında məlumat verdi.Tədbirdə iştirak edən Qobustan RTŞ-nin müdiri F.Gülaliyevi, Qobustan Həmkarlar İttifaqının sədri Ə.Qayıbovu, Qobustan şəhər 3 saylı tam orta məktəbin müəllim kollektivini, R.Behbudov adına UİM-nin kollektivini salamladıqdan sonra qeyd etdi ki,geniş və dərin təfəkkürə malik, XIV-XV əsr Azərbaycanın klassik Cahanşümul şairi İmadəddin Nəsimi 650 ildir ki, qoca Şərqin fəlsəfi fikir tarixində və ədəbi sənət aləmində özünün layiqli yerini tutub. Yaxın Şərqdə daha çox möhkəm iradə, sarsılmaz güc rəmzi, ideya mücahidi və əqidə uğrunda mübariz kimi yüz illərdir yaddaşlara hopmuş Azərbaycan şairi İ.Nəsiminin üstün keyfiyyətlərini xarakterizə edən akademik Həmid Araslı yazırdı: "Şərq xalqları tarixində öz məsləki uğrunda ölümə gedən, ölüm ayağında belə fikrindən dönməyən dəmir iradəli şəxsiyyətlər olmuşdur. Xəlifə cəlladlarının qarşısında mərdanə dayanıb rənginin saralmasını düşmən görməsin deyə üzünü qanı ilə qızardan Babək, "Ənəlhəqq" dediyi üçün X əsrdə Bağdad şəhərində dara çəkilən Mənsur Həllac, dindarların kafir adlandırıb neft tökərək yandırdıqları Eynülqüzzat, Əlincə qalasında Teymurləngin oğlu Miranşahın əmri ilə dara çəkilən, cəsədi at quyruğunda sürüdülən Fəzlullah Nəimi belə mərd insanlardandır. Lakin bunlardan heç birinin edamı böyük ideya maücahidi İmadəddin Nəsiminin ölümü qədər faciəli və əzablı olmamışdır. Məhz buna görə də 650 ildən artıdır ki, onun şərəfli adı Yaxın Şərqdə mərdlik, fədakarlıq, sədaqət və mətin iradə rəmzi kimi hörmətlə çəkilir, haqqında rəvayətlər və bədii əsərlər yaranır."

Tədbirin gedişində məktəbin şagirdlərinin ifasında "Nəsimi" filmindən fraqmentlər ifa olundu, filmdən parçalar izlənildi.

Məktəbimizin ədəbiyyat müəllimi S.Bayımov , Ə.Qayıbov, S.Məhərrəmova və digər qonaqlar mütəfəkkir şairin həyat və yaradıcılığından danışdılar. Qobustan RTŞ-nin müdiri F.Gülaliyev səhnə tərtibatını və məktəbin şagirdlərinin əl işlərini xüsusi vurğulayaraq tədbirin yüksək səviyyədə hazırlanaraq ərsəyə gəldiyini qeyd etdi. Və sonda əziyyəti olanlara öz minnətdarlığını bildirdi. Qobustan şəhər 2 saylı tam orta məktəbin kollektivinə uğurlar arzuladı.

Tədbirin sonunda məktəbin fizika müəllimi İ.Mürsəlovun ifasında Nəsiminin son səhnəsi - ölüm səhnəsi ustalıqla canlandırıldı.

***Qobustan şəhər 2 saylı tam orta məktəbin müəllimi S.Bayımov***









# Qobustan rayonunda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni ilin gəlişinə həsr olunmuş konsert keçirildi

***Dekabrın 30-da Qobustan Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Qobustan rayon Gənclər Mərkəzində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni ilin gəlişinə həsr olunmuş tədbir keçirildi.***

Tədbirdə Qobustan rayon İcra hakimiyyətinin başçısı cənab Adil Məmmədov, rayon idarə və müəssisə rəhbərləri, təhsil, səhiyyə və mədəniyyət müəssisələri, rayon ictimaiyyəti və sakinlər iştirak etdilər.

İlk olaraq tədbirin aparıcısı qonaqları salamlayaraq onları Həmrəylik Günü və Yeni il münasibətilə təbrik etdi. Xalqımızın, eləcə də dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın hər il dekabrın 31-ni - Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü kimi böyük həvəs və coşqu ilə qeyd etdiyini bildirdi.

Qobustan Rayon İcra Hakimiyyətinin başçısı cənab Adil Məmmədov tədbirdə çıxış edərək ötən 2019-cu ildə rayonumuzda aparılan sosial-iqtisadi inkişafdan danışdı, qarşıdakı 2020-ci ildə görüləcək işlər barədə ətraflı məlumat verdi. Cənab Adil Məmmədov vurğuladı ki, bu inkişaf Respublikamızın Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və dəstəyi












sayəsində bundan sonra da davam etdiriləcəkdir. Rayonun rəhbəri bütün qobustanlıları "31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik günü" və "Yeni il" bayramı münasibətilə təbrik edərək ən xoş arzularını bildirdi. Bu bayramın ildən-ilə daha geniş vüsət aldığı və daha geniş şəkildə keçirildiyi qeyd edilərək, Ulu öndər Heydər Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə verdiyi önəmdən bəhs edildi.

Tədbir iştirakçılarına 2019-ci il ərzində ölkəmizdə aparılan abadlıq-quruculuq, sosial-iqtisadi, təhsil, səhiyyə, mədəniyyət sahələrində görülmüş işlər haqqında məlumat verildi. Böyük çoşqu ilə keçirilən konsert proqramı Qobustan rayonunun tanınmış incəsənət ustalarının çıxışları ilə davam etdirildi. Bir birindən maraqlı ifalar sakinlərdə yüksək əhval-ruhiyə yaratdı.

# Ağacəkmə aksiyası Zona Təcrübə Stansiyasında






***Azərbaycan Prezidenti cənab İlham Əliyev böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar görülən tədbirlər çərçivəsində bir gün ərzində 650 min ağacın əkilməsi ilə bağlı göstəriş vermişdir.***

Həmin gündə Azərbaycanın xaricdə yerləşən səfirliklərinin ərazilərində də ağacəkmə tədbirləri keçirilməsi nəzərdə tutulmuşdu. "Ekologiya və Təbii Sərvətlər Nazirliyi Heydər Əliyev Fondu ilə birlikdə artıq Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu təşəbbüsünün reallaşması üçün işlərə başlayaraq tədbirlər planı hazırlayıb. Azərbaycanın tarixində ilk dəfədir ki, 1 gün ərzində bu qədər çox sayda ağac əkiləcək. Bu xeyirxah missiyaya ölkəmizdə fəaliyyət göstərən dövlət, qeyri-dövlət qurumlarının, diplomatik korpusların nümayəndələri və vətəndaşlarımız ruh yüksəkliyi ilə qoşulur. Aksiyanın Azərbaycanın xaricdə yerləşən səfirliklərinin ərazilərində də keçirilməsi Nəsiminin bir daha beynəlxalq aləmə tanıdılması imkanı yaradır".

Qeyd edək ki, Azərbaycan iqlim dəyişmələri ilə mübarizədə qlobal səylərə öz töhfəsini vermək üçün 2030-cu ilə qədər istixana effekti yaradan qaz tullantıları səviyyəsinin 1990-cı il səviyyəsindən 35 faiz aşağı salınmasını hədəf kimi götürüb. Bu nəcib təşəbbüs eyni zamanda iqlim dəyişmələrinin təsirlərinin azaldılmasına, təbiətin ekoloji cəhətdən sağlamlaşması işinə öz töhfəsini verəcək.

Azərbaycan 2030-cu ilədək 270 min hektar meşə ərazisini bərpa etməyi hədəf götürüb.

Belə ki, Qobustan rayonunda da ümumilikdə bir gün ərzində 7000 ağacın əkilməsi nəzərdə tutulmuşdu. Əvvəlcədən nəzərdə tutulmuş ərazilərdə ağacların əkilməsi üçün yerlər hazırlanmışdır. Belə yerlərdən biri də Qobustan rayon Zona Təcrübə Stansiyasının ərazisində Atabəy Cahangirovun təşkilatçılığı ilə 300 ədəd meyvə ağacı olan qoz ağacı əkilidi. Əvvəlcədən yerləri hazırlanmış ağcların dibinə xüsusi gübrələr verilərək ağaclar əkildi. Sonra hər bir ağacın dibinə boyanmış dayaqlar basırılaraq, ağaclara bərkitdilər. Atabəy Cahangirov bildirdi ki, əkilən ağaclar onların əməkdaşları tərəfindən diqqətdə saxlanılacaq. Hər gün bu ağaclara aqrotexniki qaydada qulluqlar göstəriləcəkdir.

***Redaktor***

# "Söz Muzeyi" Ədəbi Məclisi ümumtəhsil məktəbləri üzrə qiraət müsabiqəsi keçirib

***Dekabrın 9-da Qobustan şəhər Mədəniyyət Mərkəzində böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Qobustan Mərkəzi Kitabxanasının nəzdində yeni fəaliyyətə başlayan "Söz Muzeyi" Ədəbi Məclisinin təşkilatçılığı ilə Qobustan rayon ümumtəhsil məktəbləri üzrə Nəsimi yaradıcılığına həsr olunmuş bədii qiraət müsabiqəsi keçirilib.***






Tədbirin aparıcısı Azərbaycan Yazıçılar Birliyinin və Dünya Gənc Türk Yazarlar Birliyinin üzvü, "Söz Muzeyi" Ədəbi Məclisinin sədri Yusif Nazim Ərəbsoy ölkə başçısının 15 noyabr 2018-ci il tarixdə 2019-cu ilin "Nəsimi ili" elan olunması haqqında imzaladığı sərəncamdan, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli 211 N-li qərarına əsasən, İmadəddin Nəsiminin əsərləri dövlət varidatı hesab olunan müəlliflər siyahısına daxil olunmasından danışdı. O, bildirdi ki, "Nəsimi ili" münasibətilə görülən işlər təkcə Azərbaycanda deyil, Azərbaycandan kənarda da yüksək səviyyədə həyata keçirildi. Moskva Dövlət Beynəlxalq Münasibətlər Universitetində Nəsiminin büstü qoyuldu, Kiyevdə Nəsimi heykəlinin açılışı oldu, Beynəlxalq Astronomiya İttifaqı Yupiter və Mars planetləri arasındakı astreoidlərdən birini "Nəsimi" adlandırdı və s. Daha sonra şairin yaradıcılığından müəyyən nüansları qeyd edən aparıcı münsiflər heyətini auditoriyaya təqdim etdi. Ardınca iştirakçılara söz verildi. Onların ifasında Nəsiminin qəzəlləri dinlənildi. Sonda münsiflər heyəti xalları hesabladılar. Qobustan şəhər 3 saylı orta məktəbin IX sinif şagirdi Məmmədəliyeva Rəqsanə 1-ci yerə, 2 saylı orta məktəbin XI sinif şagirdi Mirzəliyeva Zemfira 2-ci yerə , 3 saylı orta məktəbin IX sinif şagirdi Qasımova Minəxanım III-cü yerə layiq görüldü. İlk üç yerin sahibinə diplom və hədiyyələr verildi, digər iştirakçılar isə, tərifnamələrlə təltif edildilər. Vurğulayaq ki, 1-ci yerin sahibi İsmayıllı Regional Mədəniyyət İdarəsində keçiriləcək regional müsabiqədə iştirak edəcək. Sonda aparıcı "Söz Muzeyi" Ədəbi Məclisi adından zəhməti keçən hər kəsə - Qobustan Rayon Mədəniyyət Mərkəzinin baş məsləhətçisi Həsrət müəllimə, Qobustan Mərkəzi Kitabxanasının bütün kollektivinə, xüsusən də Adilə xanıma, Sevinc xanıma, Qobustan Rayon Təhsil Şöbəsinin rəhbəri Füzuli müəllimə və Qobustan Şəhər Mədəniyyət Evinin metodisti Rəfail müəllimə öz dərin təşəkkürünü bildirdi. Tədbir kollektiv şəkil çəkdirməklə sona yetdi.

**Qobustan rayonu İcra Hakimiyyəti başçısının 002 nömrəli 07.01.2020-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir.**

# "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq Qobustan rayonu üzrə müəyyən edilmiş açıq və qapalı yerlər barədə məlumat

| Sıra № | Açıq yerlər | | Sıra № | Qapalı yerlər | | Qeyd |
|---|---|---|---|---|---|---|
| | Ünvanı | Tutumu (nəfər) | | Ünvanı | Tutumu (nəfər) | |
| 1. | Qobustan şəhər stadionu | 5000 | 1. | Qobustan rayon Mədəniyyət evi Heydər Əliyev pr.116 | 210 | |

# Cəmcəmli kənd tam məktəbində məktəbin adını daşıyan, məktəbin məzunu Rauf Babaşovun şəhadətə yüksəlməsinin ildönümü keçirilmişdir








*Cəmcəmli kənd məktəbində məktəbin adını daşıyan, məktəbin məzunu Rauf Babaşovun şəhadətə yüksəlməsinin ildönümü keçirilmişdir. Tədbirdə Rayon icra hakimiyyətinin nümayəndəsi, SHXÇDX Qobustan bölməsinin əməkdaşı, Təhsil Şöbəsinin numayəndəsi, media nümayəndəsi məktəb rəhbərliyi və kollektivi, şəhidin sinif yoldaşları və şəhid anaları iştirak etdi.*

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Tural Nadirov şəhidin kecdiyi döyüş yolundan bəhs etdi. Sonra şəhidin sinif yoldaşları müəllimlər və şəhid anaları Rauf Babaşovun qəhrəmanlığından bəhs etdi. Tədbir məktəblilərin hazırladıqları ədəbi-bədii kompozisiyalarla davam etdi. Məktəbin hərbi rəhbəri Altay Əmirov Şəhidimizin həyatından, Azərbaycan ordusunun mohkəmlənməsindən, aprel zəfərindən geniş şəkildə bəhs etdi. Şəhid anaları tədbirin keçirilməsinə görə məktəb rəhbərliyinə öz minnətdarlığını bildirdilər. Qeyd edək ki, Rauf Babaşov 1967-ci ildə Cəmcəmli kəndində anadan olub. 1991ci ildə könüllü olaraq özünümüdafiə batalyonuna qoşulub. 1991-ci il dekabr ayının 28-də Xankəndi rayonu Kərkicahan qəsəbəsi uğrunda gedən qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olub. Bakı şəhəri Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi. 2 övladı yadigar qalıb.

Şəhidlər yaradanın vətənin yolunda şüurlu şəkildə canlarından keçən insanlardır. Siz ey şəhid övladlarımız qoy ruhunuz şad olsun. Vətənin müdafiəsi naminə onun torpaqlarının qorunması uğrunda canından qanından kecib şəhidlik zirvəsinə ucalmagin ən böyük qürur olduğunu və bu zirvəyə yüksələnlərin heç zaman ölmədiklərini gostərdiniz yaşadığınız qısa ömürlə, örnək oldunuz çoxlarına öz şərəfli ölumunuzlə. bir daha göstərdiniz ki vətən daşı olmayandan olmaz ölkə vətəndaşı. Məkaniniz mübarək olsun vətən oğulları!

***Cəmcəmli kənd tam orta məktəbinin direktoru T.Nadirov***

# Mahmudov Yusif Məhəmməd oğlu

*1960-cı ildə Cəbrayıl rayonunda anadan olub.*



1990-cı ildə Bakı Dövlət Universitetini bitirib. Uzun müddət Keşlə maşınqayırma zavodunda tornaçı, ekologiya üzrə baş inspektor və Ekologiya şöbəsinin rəisi, 1999-2006-cı illərdə Təhsil Nazirliyinin Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzində (RETTM) metodist və şöbə müdiri vəzifələrində çalışıb. Həmin dövrdə VIII-XI siniflər üçün ekoloji dərnək, klub və digər birləşmələrin nümunəvi tədris proqramlarını hazırlayan işçi qrupun rəhbəri, məktəblilər arasında keçirilən respublika əhəmiyyətli ekoloji müsabiqələrdə münsiflər heyətinin üzvü olub. Məktəbdənkənar müəssisələr üçün bir tövsiyə, 4 proqram hazırlayıb. 2002-2003-cü illərdə respublikanın 14 şəhər və rayonlarında ekoloji təlimlər aparıb. 1991-ci ildən dövri mətbuatda ətraf mühit və onun problemləri mövzusunda ardıcıl çıxış edir.

1997-2000-ci illərdə ictimai əsaslarla Azərbaycan Sambo Federasiyasında təlimatçı, işlər müdiri, mətbuat xidmətinin rəhbəri vəzifələrini icra edib.

2006/2007-cı tədris ilindən Təhsil Nazirliyinin göndərişi əsasında Qobustan rayonunun İ.İbrahimov adına Dərəkənd kənd tam orta məktəbində biologiya-kimya müəllimi işləyir.

AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın müasir tarixi" şöbəsinin dissertantı olub. Görkəmli təbiətşünas alim, məhşur ekoloq, Bakı Dövlət Universitetinin kafedra müdiri, biologiya elmləri doktoru, professor Qara Mustafayevin rəhbərliyi altında "Azərbaycan Respublikasında ətraf mühitin qorunması tarixi (1991-2011)" mövzusunda dissertasiya işini uğurla başa çatdırıb və 2017-ci ildə müdafiə edərək, tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi adına layiq görülüb. Elmi tədqiqatlarının nəticəsi olaraq 40-dan çox elmi əsəri çap olunub. Onlardan 6-i xarici ölkələrin (Türkiyə, Rusiya, Gürcüstan, Qazaxstan, Özbəkistan) elmi jurnallarında və digər sanballı elmi toplularda nəşr edilib. Respublikamızn elmi arenalında ekologiyanın tarixi üzrə ilk dissertasiya işinin müəllifidir.

Elmi-pedaqoji fəaliyyətlə yanaşı, bədii yaradıcılıqla da məşğuldur. "Ekologiyadan əvvəlki ekolgiya" adlı bir monaqrafiyanın (Q.T.Mustafayev və A.T.Məmmədovla birlikdə), 5 bədii-publisistik və 3 elmi-kütləvi kitabın müəllifidir. 50-dək kitab və ya toplunun redaktoru və tərtibçisidir. Həmçinin ölkəmizdə ilk ekoloji nəşrlərdən bir neçəsinin təşəbbüsçüsü və redaktoru olub.

1996-cı ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Dirili Qurbani Məclisinin sədri, "Dirili Qurbani" dərgisinin baş redaktorudur.

***"Qobustan" qəzetinin baş redaktoru R.Şahbazov***

# YAP Qobustan rayon təşkilatı bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyasını uğurla keçirdi







***23 dekabr 2019-cu il tarixdə keçiriləcək bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyasına yüksək fəallıqla başlayan Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatı Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq təbliğat-təşviqat kampaniyasını uğurla keçirdi.***

Seçki qərargahının təbliğat-təşviqat qrupu dekabrın 10-da növbəti görüşünü Sündü kəndindən olan seçicilərlə keçirib.

Görüşdə Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyası ötən müddət ərzində müstəqil Azərbaycan dövlətinin inkişafına mühüm töhfələr vermişdir və hazırda bu istiqamətdə fəaliyyətini uğurla davam etdirir. 23 dekabr 2019-cu il tarixdə keçiriləcək Bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən ən layiqli namizədlər, əsasən gənclər irəli sürülmüşdür.

Azərbaycan gənci bu gün ölkəmizin siyasi, mədəni, ictimai həyatında mühüm yer tutur, dövlətimiz və partiyamız bacarıqlı, istedadlı gənclərin uğurla irəli getmələri üçün geniş meydan açıb, zəruri tədbirlər həyata keçirir.

Daha sonra çıxış edən YAP-ın Qobustan rayon təşkilatının təbliğat-təşviqat qrupunun üzvləri Cəfərov Zaur, Tahir Səbzaliyev,Cahangir Ağaməmmədov və digərləri cəmiyyətdə bələdiyyələrin rolunun artmasının vacibliyindən, qarşıda duran vəzifələrdən danışıblar. Natiqlər bildiriblər ki, ölkə Prezidenti İlham Əliyevin daim diqqət və qayğısını öz üzərlərində hiss edən Qobustanlılar əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seşkilərində də böyük fəallıq və coşqu nümayiş etdirəcək, bu siyasi kampaniyanın yüksək mütəşəkkilliklə keçirilməsinə nail olacaqlar.

Tədbir iştirakçıları seçkidə YAP-ın qalib gələcəyinə inandıqlarını ifadə edərək, hər kəsi fəal olmağa, "Xalq üçün" səsverməyə çağırıblar.

***Azadə RƏSSAM***



***Babayev Natik Aslan oğlu***

*Babayev Natik Aslan oğlu, 14 fevral, 1979- cu ildə Qobustan rayonunun Təklə Mirzəbaba kəndində anadan olmuşdur.1986-ci ildə Təklə Mirzəbaba kənd tam orta məktəbin birinci sinfinə daxil olmuşdur. O, ilk qələm təcrübəsini orta məktəb illərində sınamışdır, 1996-ci ildə Ə. Nəbiyev adına Qobustan rayon Təklə Mirzəbaba kənd tam orta məktəbinin 11-ci sinfini bitirdikdən sonra təhsilini Odlar Yurdu Universitetinin İqtisadiyyat fakültəsində davam etdirmişdir. Onun İlk şeirlər kitabı 2002-ci ildə Nüsrət Kəsəmənlinin təşəbbüsü ilə çapa imzalansa da, bir müddət Moskva şəhərində yaşadığım üçün ləngiyərək 2007-ci ildə "Duyğuların Limanında" adı ilə çap olunmuşdur. Hal-hazırda Təklə Mirzəbaba kəndində yaşayır və yaradıcılığa davam edir.*

## GƏL BARIŞAQ

Gör nə vaxtdır ayrılmışam,
Torpağımdan elimdən.
Gör nə vaxtdır ayrılmışam,
Öz sözümdən, dilimdən
Gəl barışaq sözüm mənim,
Gəl barışaq ilham pərim

Nədir yenə incimisən,
Uzaq düşüb ülviyyətim
Bəsdir, daha dincəlmisən,
Qoy oyansın şeyriyyətim,
Gəl barışaq təbim mənim,
Gəl barışaq ilham pərim.

Gəl-gəl, uzat əllərini,
Qovaq getsin duman, sisi.
Səndən ayrı koram sanki,
Ayırmıram yaxşı, pisi.
Gəl ey nurum, gözüm mənim,
Gəl barışaq ilham pərim.

Küsmüsənsə, gəl barışaq,
Yatmışamsa, gəl, oyanım.
Gəl, gizlicə hey danışaq,
Sən olmusan tək hayanım.
Zəif vurur nəbzim mənim,
Gəl barışaq ilham pərim.

Bu nə sevgi, nə həsrətdir,
Hey susan bir lal diləm mən.
Öz-özümə yad gəlirəm,
Səndən ayrı heç kiməm mən.
Gəl barışaq özüm mənim,
Gəl barışaq ilham pərim.

***2007-ci il, yanvar. Moskva.***

# YAP Qobustan rayon təşkilatı 23 dekabr 2019-cu il tarixdə keçiriləcək Bələdiyyə seçkilərilə əlaqədar təbliğat-təşviqat kampaniyasını keçirdi





***23 dekabr bələdiyyə seçkiləri ilə əlaqədar olaraq Qobustan rayonunda təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Növbəti görüş Qobustan rayon Təklə kənd seçiciləri ilə keçirilib.***



Görüşü giriş nitqi ilə açan YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev Azərbaycanda seçicilərin hüquqlarından danışdı. Bildirdi ki, vətəndaşların seçib, seçilmək hüququ Konstitusiya ilə müəyyən olunan ən müstəsna hüquqlardan biridir. Artıq seçicilər öz gələcək taleyini özləri müəyyən edir, müxtəlif seçkili orqanlarda təmsil olunacaq nümayəndələrini seçməklə, həm də həmin qurumlarda öz maraqlarının müdafiəsini təmin etmiş olurlar. Onlar inandıqları, etimad göstərdikləri namizədləri seçərək onlar qarşısında istənilən məsələ ilə bağlı təkliflər irəli sürür, bununla da onların həllinə müvəffəq olmuş olurlar. Füzuli Gülaliyev ölkəmizdə 1999-cu ildən təsis edilən bələdiyyə institutlarına diqqət yönəltdi. 20 yaşlı bələdiyyələrin bu qısa müddətdə kifayət qədər inkişaf etdiyini, inzibati əraziləri daxilində sakinlər üçün mühüm işlərin görüldüyünü bildirdi. Təbii ki, mövcud nöqsanlar və həllini gözləyən problemlər də var. Rayon təşkilatının sədri namizədlərə tövsiyyələrini verdi. Bildirdi ki, seçicilərin etimadını qazanaraq bələdiyyə üzvü seçiləcəkləri təqdirdə daim dövlətimizin və xalqımızın inkişafına səy göstərsinlər. Bu istiqamətdə durmadan, yorulmadan çalışsınlar. Bu böyük etimaddır və onlar seçicilərin bu etimadını doğrultmalıdırlar.

Görüşdə çıxış edən YAP Qobustan rayon təşkilatı seçki qərargahının üzvlərindən Azadə Buğday,Şahbazov Ruslan, Cəfərov Zaur,Tahir Səbzaliyev və digərləri çıxış edərək bildirdilər ki, Yeni Azərbaycan Partiyası bütün fəaliyyəti dövründə daim xalqla bir olub, onun inkişafı, tərəqqisi yolunda əzmlə çalışıb. Son illərdə ölkə Prezidenti, YAP-ın sədri cənab İlham Əliyevin həyata keçirdiyi və müxtəlif sahələrdə mühüm dəyişikliklərə səbəb olan bu islahatlar xalqımıza olan sevginin bariz nümunəsidir. Bu baxımdan partiya tərəfindən irəli sürülmüş namizədlərin növbəti 5 ildə bələdiyyə sahəsində siz seçicilərə ləyaqətlə xidmət edəcəklərinə inanırıq Natiqlər seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırdı.

Bələdiyyə üzvlüyünə namizədlər Nicat Ələkbərov,Teyfur Əmrahov çıxış edərək vurğuladılar ki, tarixi təcrübə göstərir ki, hər bir dövlətin mütərəqqi inkişafı müxtəlif amillərlə yanaşı, həm də demokratik seçkilərdən asılıdır. Cənab Prezidentin həyata keçirdiyi siyasi xətlə cəmiyyətimizdə demokratik ənənələr daha da möhkəmləndirilib. İnamla deyə bilərik ki, əvvəlki seçkilərdə olduğu kimi, bu seçkilərdə də YAP təmsilçiləri qələbə qazanacaqlar. Hər zaman dövlətimizə xalqımıza, seçicilərimizə vicdanla, ləyaqətlə xidmət etmək üçün hazırıq. Namizədlər daha sonra bütün seçiciləri 23 dekabrda keçiriləcək bələdiyyə seçkilərində YAP-nın namizədlərinə səs verməyə dəvət etdilər.

***Azadə RƏSSAM***

# Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Xilmilli kənd sakinləri ilə səyyar görüş keçirdi

***Qobustan rayon Xilmilli kənd tam orta məktəbdə Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Xilmilli kənd sakinləri ilə səyyar görüş keçirdi.***

Görüşdə Qobustan rayon Prokuroru kiçik ədliyyə müşaviri Hüseynov Ramin Rafiq oğlu, Rayon İcra Hakimiyyəti başçısının müavinləri, aparatın şöbə müdirləri iştirak edirdi. Sakinlər çıxış edərək rayonumuzda gedən abadlıq və quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirdilər və onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını xahiş etdilər. Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurum rəhbərlərinə konkret tapşırıqlar verdi.









## Qobustan rayon Gənclər və İdman idarəsi

13 dekabr 2019-cu il tarixdə rayonun Ərəbşalbaş kəndində Qobustan rayon Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə Bələdiyyə seçkiləri və "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının 5.7.3 yarımbəndinin (Gənclər arasında seçki prosesinin və seçkilərdə (referendumda) iştirakın təbliği, ilk dəfə səs verən seçicilər arasında maarifləndirmə işinin təşkili) icrasını təmin etmək məqsədi ilə gənclər, xüsusilə ilk dəfə səs verən gənclərin seçki qaydaları ilə bağlı maarifləndirilməsi mövzusunda seminar keçirilmişdir.



# Qobustan rayonunda təbliğat-təşviqat kampaniyası uğurla keçirdi

***23 dekabr bələdiyyə seçkiləri ilə əlaqədar olaraq Qobustan rayonunda təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Növbəti görüş Qobustan rayon Mədəniyyət və turizm işçiləri ilə keçirilib.***

Görüşdə çıxış edən YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev bildirdi ki, ölkəmizdə keçirilən seçkilər hər zaman mühüm siyasi hadisə kimi cəmiyyətimizin diqqət mərkəzindədir və vətəndaşlarımız seçkilərdə fəal iştirak edirlər. Son 16 ildə ölkəmiz yüksək inkişaf yolu keçib. Ölkə başçısı cənab İlham Əliyevin reallaşdırdığı uğurlu layihələr, apardığı islahatlar nəticəsində bütün Azərbaycanda olduğu kimi, Qobustan rayonunda da böyük işlər görülüb. Bu uğurlu siyasət dövlətçiliyimizin, xalqımızın inkişafına, tərəqqisinə yönəlmişdir. Təbiidir ki, bu nailiyyətlər ölkə vətəndaşları tərəfindən yüksək qiymətləndirilir və cəmiyyətimiz xalqın mənafeyinə xidmət edən bu siyasi kursu dəstəkləyir. Prezident İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən bu günə qədər keçən müddət ərzində Azərbaycanın siması tamamilə kökündən dəyişib, iqtisadiyyatımız böyük inkişaf mərhələsi keçib. Neçə ildir ki, ölkəmiz dünyada yüksək inkişaf dinamikası nümayiş etdirir. Bütün bunlar bir yandan Azərbaycan vətəndaşlarının öz dövləti ilə qürur hissi keçirmək hisslərini formalaşdırır, digər tərəfdən xalqımızın rifahının, həyat səviyyəsinin və həyat tərzinin əhəmiyyətli dərəcədə dəyişməsi üçün etibarlı zəmin yaradır. Son illərdə insanların yaşayış səviyyəsində əhəmiyyətli nailiyyətlərin əldə edilməsi, Azərbaycanın sosial simasının dəyişməsi, regionların inkişaf etdirilməsi YAP-ın həm də ictimai nüfuzunu müəyyənləşdirən amillərdir. Hər bir Azərbaycan vətəndaşı YAP-ın timsalında ölkənin bugünkü inkişafını təmin edən və gələcək tərəqqisinin əsasında dayanan ictimai gücü görür. Biz həmişə haqqa - ədalətə önəm verən, xalqını - vətənini dərin məhəbbətlə sevən, fəaliyyəti ilə əməlləri bir olan Liderə arxalanmışıq. Belə bir insan, belə bir qətiyyətli rəhbər, belə bir müdrik siyasətçi İlham Əliyevdir.

YAP tərəfindən irəli sürülən namizədlərin xalqımız tərəfindən yekdil dəstək alacağına inandığını bildirərək, seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstək olmağa çağırıb Partiyamız ötən seçkilərdə olduğu kimi, 23 dekabrda keçiriləcək bələdiyyə seçkilərində də qələbə qazanacaq.

Təbliğat-təşviqat qrupunun üzvlərindən Cahangirov Atabəy, Ağaməmmədov Cahangir,Tahir Səbzaliyev,Anar Əkbərov və digərləri çıxış edərək bildirdi ki, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olmuşdur. Bu gün hər birimiz Azərbaycanımız naminə, Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstək olaraq, ulu öndər Heydər Əliyevin müəyyən etdiyi yol ilə gedərək, dövlətimizin inkişafı üçün səylərimizi əsirgəməyərək «İlhamla irəli» addımlamalıyıq. Yeni Azərbaycan Partiyası seçkilərə böyük inamla gedir. Əminik ki, partiyamız ötən seçkilərdə olduğu kimi, 23 dekabrda da keçiriləcək bələdiyyə seçkilərində də qələbə qazanacaq.

# Qobustan məktəbliləri arasında Respublika fənn olimpiadasının rayon turu keçirildi





***12 yanvar 2020-ci il tarixində Qobustan şəhər 3 saylı tam orta məktəbdə Respublika fənn olimpiadasının rayon turu keçirildi.***

Respublika fənn olimpiadasının rayon turu çərçivəsində rayonun 27 məktəbindən 228 şagird 8 fənn üzrə keçirilən yarışmaya qatıldılar. Ana dili, ədəbiyyat, riyaziyyat, kimya, biologiya, coğrafiya, fizika və tarix fənlərindən keçirilən olimpiadanın şəffaflığını Qobustan RTŞ-nin metodkabinetinin müdiri Soltanov Mahir, Təhsil meneceri Tahirov Firudin, metodist Zərnisə İsgəndərova ciddi şəkildə təmin etdilər. Siniflərə təyin olunmuş nəzarətçi müəllimlər də öz vəzifələrini yüksək həvəslə yerinə yetirdilər. Belə ki, onların səyi nəticəsində heç bir qanun pozuntusu olmadan olimpiadanın rayon turu yekunlaşdırıldı.

***Mahir Soltanov***





## Qobustan rayon prokurorluğu əməkdaşları tərəfindən 2020-ci ilin yanvar-mart aylarında vətəndaşların yaşayış yerləri üzrə qəbuluna dair

## QRAFİK

| Sıra №-si | Vətəndaşların qəbulu keçirilən ərazi | Qəbulun keçirilmə vaxtı | Vətəndaşları qəbul edən məsul şəxs |
|---|---|---|---|
| 1. | Qobustan rayonu İHB-nin Təklə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 24.01.2020 11:00-13:00 | Rayon prokuroru Ramin Hüseynov |
| 2. | Qobustan rayonu İHB-nin Nabur kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 28.02.2020 11:00-13:00 | Rayon prokuroru Ramin Hüseynov |
| 3. | Qobustan rayonu İHB-nin Yekəxana kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 27.03.2020 11:00-13:00 | Rayon prokuroru Ramin Hüseynov |

***Qeyd:***

Kəndlərdə qəbulların keçirilməsi ilə əlaqədar əvvəlcədən rayon İHB-nin kəndlər (şəhər) üzrə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinə və bələdiyyələrə məlumat verilməlidir.

***Qobustan rayon prokuroru kiçik ədliyyə müşaviri Ramin Hüseynov***

*Təsisçi:* Qobustan Rayon İcra Hakimiyyəti
www.qobustan-ih.gov.az

*Baş redaktor:*
**Ruslan Şahbazov**
**Tel.: (050) 524 28 10**
**(070) 224 28 10**

*Ünvan:*
Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Son dəqiqə" mətbəəsində çap olunmuşdur
Tiraj: 2000
E_mail:qobustanqazeti@mail.ru